## Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi

## ***Sual-cavab***

**1. Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi necə həyata keçirilir?**

- Dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi Elm və Təhsil Nazirliyi tərəfindən, mərkəzləşdirilmiş qaydada, proqram təminatı vasitəsilə həyata keçirilir.

**2. Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi prosesində kimlər iştirak edə bilər?**

- Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi prosesində dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə əsasında ən az 1 tədris ili müəllim olaraq çalışan və həmin iş yeri üzrə minimum 5 saat dərs yükünə sahib olan şəxslər iştirak edə bilərlər.

**3. Prosesdə iştirak etmək istəyən namizədlər qeydiyyatdan necə keçəcəklər?**

- Prosesdə iştirak etmək istəyən namizədlər miq.edu.az/qy/ saytına daxil olaraq qeydiyyatdan keçməlidirlər.

**4. Bir il ərzində neçə dəfə qarşılıqlı yerdəyişmə etmək mümkündür?**

- Namizəd bir tədris ili ərzində bir dəfə qarşılıqlı yerdəyişmə etmək hüququna malikdir.

**5. Prosesdə namizədlər hansı balla iştirak edə bilərlər?**

- Qarşılıqlı yerdəyişmə prosesində yalnız müəllimlərin işə qəbulu və ya diaqnostik qiymətləndirmə imtahanı nəticəsi olan şəxslər iştirak edə bilərlər.

**6. Prosesdə keçid balı nəzərdə tutulubmu?**

- Bəli. Proses üzrə minimum keçid balı 30 bal olaraq müəyyənləşdirilmişdir.

**7. Son 3 il ərzində müddətsiz əsaslarla işə qəbul olunan müəllim bu prosesdə iştirak edə bilərmi?**

- Bəli. Qeyd olunan məsələ ilə bağlı hər hansı bir məhdudiyyət nəzərdə tutulmayıb.

**8. Proses üzrə hər hansı bir sosial amil nəzərə alınaraq iştirakçılara əmsal tətbiq olunurmu?**

- Xeyr. Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi prosesində namizədlərin imtahan balına hər hansı bir əmsal tətbiq olunmayacaq.

**9. Əgər müəllim hazırda iki ümumi təhsil müəssisəsində çalışırsa, prosesdə hansı iş yeri üzrə iştirak edə bilər?**

- Namizədlər yalnız müddətsiz müqavilə əsasında çalışdığı əsas iş yeri üzrə qarşılıqlı yerdəyişmə etmək hüququna malikdir.

**10. Hazırda analıq məzuniyyətində olan şəxslər prosesdə iştirak edərək yerdəyişmə edə bilərmi?**

- Xeyr, qeyd olunan şəxslərin prosesdə iştirakı imkan xaricindədir.

**11. Digər bölgələrdən Bakı, Sumqayıt şəhəri və Abşeron rayonu üzrə qarşılıqlı yerdəyişmə etmək mümkün olacaqmı?**

- Bəli.